*Qədim Diyar*
May 2026, Cild. 8, Say 5, s. 7−13
*Ancient Land*
May 2026, Vol. 8, Issue 5, pp. 7−13
DOI: https://doi.org/10.36719/2706-6185/60/7-13

# Azərbaycanda milli şüurun formalaşmasında Əlimərdan bəy Topçubaşovun rolu

**Rafail Əhmədli**

***Xülasə.*** *Məqalədə XX əsrin əvvəllərində Çar Rusiyası ərazisində baş verən ictimai-siyasi proseslər və bu proseslər nəticəsində daha da artan milli özünüdərk və milli azadlıq hərəkatında Əlimərdan bəy Topçubaşovun yeri və rolu araşdırılır Onun fəaliyyətində nəinki Azərbaycan xalqının, bütün Rusiyada yaşayan türklərin mənafeyi uğrunda mübarizəsinə nəzər yetirilir. Eyni zamanda əsərdə Ə. Topçubaşov bu illərdə Bakı Dumasının üzvü, və sədri olması, Rusiya ərazisində yaşayan müsəlmanların siyasi təşkilatını- "İttifaqi Müslimin" adlı siyasi partiyanı yaradanlardan biri olması, partiyanın proqramını hazırlaması və üzvü və sədri olması bu proqramda ilk dəfə olaraq muxtariyyət məsələsinin qoyulması qeyd olunaraq mütəfəkkirin milli şüurun inkişafı istiqamətində fəaliyyəti vurğulanır. Böyük mütəfəkkirin bütün Çar Rusiyada qanunların təkmilləşdirilməsi və Rusiyada yaşayan müsəlman türklərin sosial-mədəni hüquqlarının həll edilməsi, müsəlmanların rus xalqı ilə eyni hüquqa malik olması, siyasi, mədəni və dini azadlıqlar verilməsi üçün yalnız nəzəri müddəalar irəli sürməklə kifayətlənməməsi, müsəlmanların mütərəqqi ziyalılarını bu məqsədlər ətrafında birləşərək qanuni yollarla bütün məhdudiyyətlərin aradan qaldırılmasına səsləməsi və buna nail olmağa çalışması araşdırılır.*

***Açar sözlər:*** *Azərbaycan, Rusiya, Milli şüur, Ümumrusiya, Müsəlman Qurultayları, Cümhuriyyət, Duma, hüquq*

---

Azərbaycan Dövlət Pedaqoji Universiteti, fəlsəfə elmləri doktoru, Bakı, Azərbaycan
E-poçt: ehmedli.rafail@mail.ru
Daxil oldu: 28 Dekabr 2025; Qəbul edildi: 15 Mart 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# The Role of Alimardan Bey Topchubashov in the Formation of National Consciousness in Azerbaijan

**Rafail Ahmadli**

***Abstract.*** *The article examines the socio-political processes taking place in Tsarist Russia at the beginning of the 20th century and the place and role of Alimardan bey Topchubashov in the national self-awareness and national liberation movement that grew as a result of these processes. His struggle for the interests of not only the Azerbaijani people but also the Turks living in Russia is examined in his activities.*

*At the same time, the work highlights the fact that A. Topchubashov was a member and chairman of the Baku Duma in these years, that he was one of the founders of the political organization of Muslims living in Russia - the political party called "Ittifagi Muslimin", that he prepared the party's program and that the issue of autonomy was raised in this program for the first time, and that the thinker's activity in the direction of the development of national consciousness is emphasized. The great thinker's efforts to improve laws throughout Tsarist Russia and resolve the socio-cultural rights of Muslim Turks living in Russia. And also ensure that Muslims have the same rights as the Russian people, and to give them political, cultural, and religious freedoms. Putting forward theoretical propositions, but rather to calling on progressive Muslim intellectuals to unite around these goals and eliminate all restrictions through legal means, and to strive to achieve this was examined.*

***Keywords:*** *Azerbaijan, Russia, National consciousness, All-Russia, Muslim Congresses, Republic, Duma, law*

---

Azerbaijan State Pedagogical University, Doctor of Philosophy, Baku, Azerbaijan
E-mail: ehmedli.rafail@mail.ru
Received: 28 December 2025; Accepted: 15 March 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Azərbaycan milli istiqlal mübarizəsi tarixində özünəməxsus yeri və rolu olan, millətimizin milli, siyasi və hüquqi şüurunun inkişafında böyük xidmətlər göstərmiş, hələ Çar Rusiyası dövründə hər yerdə o cümlədən üzvü olduğu ən yüksək qurumda – Dövlət Dumasında nəinki Azərbaycan Türklərinin, bütün rusiya müsəlmanlarının haqq və hüquqlarını daim müdafiə etmiş, milli mənafeni hər zaman öndə tutmuş Əlimərdan bəy Topçubaşov keçməkeşli həyat yolunda şərəfli bir ömür yaşamışdır.

Ümumiyyətlə desək XX yüzilin başlanğıclarında dünyada gedən ictimai-siyasi proseslər, yeni dünya düzəninin formalaşdığı bir dövrdə xüsusilə Rus imperiyasında milli özünü dərk, milli azadlıq hərəkatı üçün münbit şərait yaranmışdı. Belə ki, «XX əsrin əvvəllərində baş verən iqtisadi böhran və Rusiyanın Yaponiya qarşısında məğlubiyyəti «xalqlar həbsxanası» olan çar Rusiyasının sütunlarını laxlatdı, bütün imperiyanı, o cümlədən də Azərbaycanı tətillər dalğası bürüdü. Daha tez-tez baş verən fəhlə və kəndli çıxışları, müstəmləkəçi siyasət yeridən hakimiyyət orqanlarının özbaşınalıqları bütövlükdə cəmiyyətin bütün təbəqələrində narazılığın artmasına və onun siyasiləşməsinə» (Azərbaycan tarixi, 2001, s. 630) səbəb oldu. Bütün bunlar hakimiyyəti «Manifest» elan etməyə məcbur etdi. Bu manifestdə öz əksini tapmış müddəalar «Rusiya əsarətində inləyən bütün millətlərin həyatında olduğu kimi... Rusiya məhkumu türklərin, o cümlədən Azərbaycan xalqının da həyatında mühüm bir dövrün başlanğıcı oldu. Bu tarixdən etibarən nisbətən geniş nəfəs almaq imkanı tapan Azərbaycan şeir, ədəbiyyat, teatr, musiqi, mətbuat, nəşriyyat və maarif sahəsində olduğu kimi, ictimai-siyasi fikir və cəmiyyətlər baxımından da irəliləməyə başladı. Gündəlik qəzetlər təsis olundu. Mətbuatın təsisilə Qafkasyada siyasi, ictimai və milli bir fikir təşəkkül etdi» (Məmmədzadə, 1992, s. 246).

Çarın bu «Manifest»indən yararlanan Azərbaycan ziyalıları demokratik azadlıq və hüquqlar uğrunda mübarizəni daha da genişləndirməyə, gizli təşkilatlar yaratmağa, Azərbaycan ictimai-siyasi həyatında fəal iştirak etməyə başladılar. Bu dövrdə Ə.Topçubaşov, Ə.Ağayev və İ.Ziyadxanovun başçılıq etdikləri «İttifaq-ül-müslimin», «Difai» və ya «Müdafiə» adlı milli partiyalar meydana çıxdı» (Məmmədov, 2005, s. 488).

Dövrün inkişaf etmiş ədəbi-bədii maarifçiliyinə siyasi maarifçilik də böyük təkan verdi. Milli mənafedən çıxış edən mətbuat orqanları getdikcə artmağa başladı. Həmin mətbu orqanları isə müxtəlif düşüncəyə sahib olan Azərbaycan ziyalılarını öz ətrafında birləşdirməyə nail oldular və dövrün siyasi proseslərini, elmi-fəlsəfi, ədəbi-bədii məsələlərini əks etdirən, ümummilli hərəkata, milli şüurun inkişafı istiqamətində əvəzsiz xidmətlər göstərdilər.

**Tədqiqat**

Azərbaycan xalqının siyasi və ideoloji düşüncə tarixində özünəməxsus yeri olan ictimai-siyasi və dövlət xadimi, Şərqdə yaradılmış ilk Demokratik Respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin sədri Əlimərdan bəy Topçubaşov millətimizin ictimai-siyasi və milli şüurunun inkişafında böyük rol oynamışdır. Onun Azərbaycan Xalq Cümhuriyyətinin formalaşmasında, dünya dövlətləri tərəfindən tanınmasında və beynəlxalq əlaqələrin qurulmasında əvəzsiz xidmətləri danılmazdir.

Tədqiqatçı alim Faiq Ələkbərli yazır: "XX əsrin əvvəllərində Quzey Azərbaycanda qərbçilikdən çıxış edən yeniləşmə tərəfdarları milli liberalistlər olmuşdur. Belə ki, bu dövrdə Ə.Ağaoğlu, Ə.Hüseynzadə və başqaları qərbçilik, avropalaşmaq ideyalarıyla milli-dini ideyaların müqayisəsi zamanı, üstünlüyü türkçülüyə və islamçılığa verirdilərsə, ancaq onlardan fərqli olaraq milli liberalizmin nümayəndəsi kimi Əlimərdan bəy daha çox liberal-demokratik mövqedən çıxış etmişdir. Topçubaşı bu iki ideyanı ideallaşdırmaqdan yan qaçaraq, daha çox diqqəti liberal-demokratik dəyərlərə, o cümlədən Rusiya türklərinin birliyinə və onların milli-mədəni muxtariyyatına yönlətmişdir. Başqa sözlə, milli liberallar islamçılıqdan və türkçülükdən çox cəmiyyətin yeniləşməsi, Qərbin-Avropanın mütərəqqi mədəniyyətinin mənimsənilməsi məsələlərinə diqqət yetirmişlər" (Ələkbərli, 2023, s. 372).
Ə. Topçubaşov XX yüzilin əvvəllərindən nəinki Azərbaycan xalqının bütün Rusiya ərazisində yaşayan Türk xalqlarının milli azadlıq hərəkatında önəmli fikir adamı kimi, onların siyasi və hüquqi haqlarının əldə edilməsində aparılan mübarizənin öncüllərindən biri olmuşdur. O, bu illərdə Bakı Dumasının üzvü, və sədri olmaqla yanaşı Rusiyası ərazisində yaşayan müsəlmanların siyasi təşkilatını- "İttifaqi Müslimin" adlı siyasi partiyasını yaradanlardan biri olmuş və onun hazırladığı Proqram əsas proqram kimi qəbul olunmuşdur.

Əlimərdan bəyin hazırladığı bu proqramda ilk dəfə olaraq muxtariyyət məsələsi qoyulmaqla sanki gələcək Azərbaycan Xalq Cümhuriyyətinə gedən yolun əsası qoyulurdu. Proqram "Siyasi məqsədlər, Əhalinin hüquqları, Dövlət quruluşu, Dini qaydalar, Məhəlli muxtariyyət, Məhkəmə, Maarif, Maliyyə işləri, Torpaq məsələləri, Fəhlə məsələsi" adlı 10 bölmədən 72 maddədən ibarət idi.

Hələ bundan öncə Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Bakıda tanınmış ziyalıların, tacirlərin, kənd nümayəndələrinin məclisində yekdilliklə qəbul edilən və mərkəzi çar hökumətinə təsdiq üçün təqdim ediləcək "Haqq istəyi" və ya "Qafqaz Müsəlmanlarının tələbləri"ndə nəzərdə tutulmuş müddəalar bu Proqramda da öz əksini tapmışdı (Hüseyn, 1992, s. 148–158).

Rusiya müsəlmanlarının üçüncü Qurultayında Əlimərdan bəy Topçubaşovun hazırladığı bu Proqramda nəzərdə tutulan müddəaları həyata keçirmək üçün fəaliyyət istiqamətlərində göstərilirdi ki, Rusiyada yaranmış bugünkü şəraitdə ölkənin ərazisində yaşayan müsəlmanların, xüsusilə də Türklərin siyasi və sosial-mədəni problemlərini həll edə bilmək üçün birləşmək lazımdır. Bu

məqsədləri həyata keçirmək üçün Rusiya müsəlmanlarının mütərəqqi qismi dövlət idarələrində xalq tərəfindən seçilən nümayəndələrin iştirakı ilə qanunların tərtib olunması və hüquq qaydalarının yaradılmasında iştirak edəcəyinə inanır. Bu məqsədlərə nail olmaq üçün müsəlmanlara rus xalqı ilə bərabər hüquqların verilməsi vacibdir. Müsəlmanların mütərəqqi qismi bütün qanuni prinsiplərdən hərəkət edərək müsəlmanlar üçün qoyulmuş məhdudiyyətləri aradan qaldırmağa səy edəcəkdir. İndiyə kimi müsəlmanlar üçün qoyulmuş qadağanlar aradan qaldırılmalı və onlara da rus xalqı kimi siyasi, mədəni və dini azadlıqlar verilməlidir. Müsəlmanlar öz səylərini dövlət daxilində mümkün ola biləcək işlərin həllinə yönəldəcəklər. Bunlara hər cür məktəblərin açılması, oxucuların tələblərinə cavab verən kitabların, qəzetlərin, jurnalların nəşri, kursların, kitabxanaların, qiraətxanaların və başqa təhsil müəssisələrinin yaradılması daxildir. Yuxarıda göstərilən məqsədlərə tez çatmaq üçün yerli xalq məclisləri təşkil ediləcək və bu məclislər vaxtaşırı qurultaylar vasitəsilə müsəlmanlar tərəfindən idarə ediləcəkdir (Hüseyn, 1992, s. 159).

Dövrün ziyalılarının, xüsusilə Əlimərdan bəy Topçubaşov və onun yaxın silahdaşlarının düzgün müəyyənləşdirdikləri bu fəaliyyət istiqamətlərini yerinə yetirmək üçün ilk növbədə aşağıdakı məsələləri həyata keçirməyi irəli sürmüşdülər:
1) Xalqın maarifləndirilməsi və mədəniyyətinin inkişafına nail olmaq və bu yolla cəhalətə, xurafata və fanatizmə qalib gəlmək;
2) Xalqın milli şüurunun oyanışına, haqq və hüquqlarının dərkinə çalışmaq;
3) Azadlığın, müstəqilliyin müstəmləkəçiliyə və milli ədavət siyasətinə qalib gəlməyin yollarını müəyyənləşdirmək;
4) İslam "bayrağı" altnda Ümumrusiya ərazisində milli azadlıq ideyalarını mübarizəyə yönəltmək;
5) Türk xalqlarının birliyi ideyasını gələcək qələbənin əsas simvolu kimi qəbul etmək (Vəliyeva, 2022).

Qurultayda çıxış edən Əlimərdan bəy Topçubaşov demişdi: "Ey möminlər! Ey qardaşlar! Mən bu gün o qədər, o qədər məmnun oldum ki, bu məmnuniyyətlərimi sizə heç bir dillə tərif edə bilmirəm. Mən bu günü heç vaxt xatirimdən çıxarmayacağam. Bu günün bundan sonra Ümumrusiya müsəlmanları üçün "Milli Bayram" günü olacağı, şübhəsizdir. Biz, Türk balaları, əslimiz bir, nəslimiz bir, dinimiz birdir. Günbatandan Gündoğana qədər bizim babalarımızın mülkü idi. Babalarımız qəhrəman millət olduqları halda, Qafqaz dağlarında, Krım bağlarında, Kazanın çöllərində ata-babalarımızın mülkü olan öz Vətənimizdə, öz torpaqlarımızda, öz ehtiyaclarımız barədə danışmağa ixtiyarımız qalmadı. Şükürlər olsun Allaha... Bu qədər çətinliklərə, zəhmətlərə baxmayaraq bu gün sular üzərində (Qurultay Nijni Novqorodda, Oka çayındakı "Qustav Struve" gəmisində keçirilmişdi – R.Ə.) ürəklərimizi açıb bir-birimizi üz-üzə görüb, qucaqlaşıb, hal-əhval tutmağa müvəffəq olduq" (Behbudov, 2018, s. 162–173).

Dərin hüquqi biliyə, milli ruha, ictimai-siyasi və fəlsəfi dünyagörüşə malik Əlimərdan bəyin işləyib hazırladığı fəaliyyət proqramı çətinliklə olsa da mərhələ-mərhələ nailiyyət qazanmış, millətin ən fədakar oğulları tərəfindən həyata keçirilməyə başlanılmışdı.

Əlimərdan bəy Topçubaşovun ictimai-siyasi fəaliyyətinin püxtələşməsində "Kaspi" qəzetinin də mühüm rolu olmuşdu. Qısa bir dövrdə redaktor kimi fəaliyyət göstərən Məhəmməd Ağa Şaxtaxlıdan sonra "Kaspi" qəzetinin ikinci Türk redaktoru Əlimərdan bəy Topçubaşovdan başlayaraq bu qəzet "Müsəlman Kaspisi" adlanmağa başlamışdı. Azərbaycan tarixində yeni ruhlu mətbuat orqanı olan "Kaspi" qəzeti Azərbaycan xalqının milli şüurunun inkişafı, milli intibah və istiqlal hərəkatında mühüm rol oynamışdır.

Çevik düşüncə tərzinə və operativ fəaliyyət vərdişinə malik olması Əlimərdan bəyə hadisələri vaxtında düzgün qiymətləndirməyə, milli düşüncə sahiblərindən ibarət silahdaş çevrəsini genişləndirməyə imkan yaradırdı. Azərbaycanın ilk "millət xadimi" və 1-ci Dövlət Dumasının vəkili

kimi bütün Qafqaz və Rusiya müsəlmanlarının lideri səviyyəsində onların hüquqlarını müdafiə etmişdi. Xalq, millət fədaisi və gördüyü işlər onun Azərbaycan Cümhuriyyətinin qurulmasına qədərki dövrdə bir dövlət xadimi kimi yetişməsində xüsusi rol oynamışdı. Onun cəsarətli fəaliyyəti və müxtəlif mövqedən çıxışlar edərək məşhur "Vıborq Bəyannaməsi"ni imzalaması onun üç ay həbsə məhkumluğu ilə nəticələnmişdi (Vəliyeva, 2022).

1917-ci ilin sonlarında Əlimərdan bəy "10 nömrəli seçki siyahısı üzrə" Gəncə dairəsindən Ümumrusiya Məclisi-Müəssisdə Dumaya deputat seçilmişdi. Lakin 1917-ci ilin noyabrında bolşeviklər çevriliş edərək hakimiyyəti əllərinə aldıqlarından Dumanın fəaliyyətinə son qoyulmuş və Topçubaşov da mərkəzə gedə bilməmişdi.

Dumanın aqrar komissiyasında aqrar məsələlərin müzakirəsində iştirak edən Topçubaşov Komissiyanın məlumatlarının geniş yayılmasını təklif etmiş və göstərmişdi ki, məlumatlar təkcə dövlət dili olan rusca ilə deyil, imkan daxilində onu yerli dillərə tərcümə etmək lazımdır. Bununla bağlı o, bildirmişdi ki, "Qoy xalq tatarı da, polyakı da, gürcüsü də, başqaları da, hər bir kəs burada gedən işi öz ana dilində oxusun. Qoy hər kəs bilsin və öz ana dilində oxusun ki, indiki Nazirlik nədir və xalq nümayəndələrinin səmərəli fəaliyyətinə kim əngəl törədir" (Vəliyeva, 2022).

Sonralar "Kaspi" qəzetində dərc etdiyi bir məqaləsində Topçubaşov göstərmişdi ki, "bütün rus təbəələrinin hüquq bərabərliyi, vicdan azadlığı, söz azadlığı, şəxsiyyətin toxunulmazlığı, kəndlilərə torpaq verilməsi kimi məsələlərin hazırlanmasında bu cür ümumdövlət məsələlərində hər hansı bir milli xarakterli məsələlərə yer ola bilməzdi. Buna Rusiyanın bütün xalqlarının mənafeləri yol vermişdi. Hazırkı dövrün bütün şəraiti bunun əleyhinə idi" ("Kaspi" qəzeti, 1906).

Əlimərdan bəy 1918-ci il erməni-Azərbaycan münaqişəsindən sonra müxtəlif dövlətlərin Azərbaycana təzyiqlərin artdığı bir vaxtda hətta Türkiyə Xarici İşlər Nazirliyinin müstəşarı Rəşad Hikmət bəyin: "5-10 kəndlə Azərbaycan nə varlı olan deyil, nə də kasıb" təklifinə qarşı Əlimərdan bəy Topçubaşov sübut və dəlillərlə tarixi torpaqlarımızın müdafiəsinə qalxmış, hətta ermənilərin nə zaman bu yerlərə köçürüldüyünü, Qafqazdakı, İrəvandakı məkrli niyyətlərini ortaya qoymuş, Azərbaycan dövlətinin adından müstəşarın bu fikri ilə qəti şəkildə razı olmadığını bəyan etmişdi.

1917-ci il Fevral inqilabı və Oktyabr çevrilişindən sonra siyasi və ictimai fəaliyyətini daha da genişləndirən Əlimərdan bəy Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizəyə var-qüvvəsi ilə qoşulmuş, 5 mart 1917-ci ildə Bakıda yaradılan ictimai təşkilatların şurası və onun İcraiyyə Komitəsinin tərkibinə daxil olmuş və iyun ayında təşkil olunan 33 nəfərdən ibarət yeni heyətdə Komitənin sədri seçilmişdi. O, həmçinin 29 mart 1917-ci ildə Bakıda təşkil edilən Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsinə Məhəmməd Əmin Rəsulzadə və Məmmədhəsən Hacınski və digərləri ilə bərabər seçilmiş, bu təşkilatın rəhbərlərinin gərgin əməyi nəticəsində 15-20 aprel 1917-ci ildə Bakıda Ümumqafqaz Müsəlmanlarının Qurultayı çağırılmış, Qurultay iştirakçıları yekdilliklə Əlimərdan bəy Topçubaşovu sədr seçmişdi. Qurultayın sədri kimi o, ilk çıxışında çar hökumətinin İmperiya daxilindəki digər xalqlara qarşı apardığı siyasəti pisləyərək bildirmişdi ki, köhnə rus hökumətinin Rusiyada yaşayan qeyri-rus xalqlara qarşı münasibətdə yeritdiyi siyasət parçalamaq, milli ədavəti qızışdırmaq siyasəti olmuşdur. Bu siyasət ermənilər və müsəlmanlar arasında özünü bariz şəkildə göstərmişdir.

1917-ci ilin avqust ayının 12-15-də Müvəqqəti Hökumət Moskvada Dövlət müşavirəsi çağırmış, bu müşavirədə Rusiyanın müxtəlif yerlərindən gəlmiş, 34 müsəlman nümayəndə heyətinin Azərbaycan nümayəndəsi Əlimərdan bəy Topçubaşov idi. 13 avqustda Moskva müşavirəsinin müsəlman nümayəndələrinin iclası keçirilmiş, müşavirədə çıxış edəcək nümayəndənin məruzəsini hazırlamaq üçün komissiya təşkil edilmiş, komissiya məruzəni hazırlamağı və məruzə etməyi Əlimərdan bəyə tapşırmışdı. Topçubaşov müşavirədə çıxış edərək bildirmişdi ki, Rusiyada yaşayan müsəlmanlar

çarizmin devrilməsini alqışlayırlar. Hər yerdə demokratik əsaslarla yaranmağa başlamış siyasi və ictimai təşkilatlar inqilabi nailiyyətləri – azadlıq, bərabərlik və qardaşlığı qoruyur və möhkəmləndirirlər. 1917-ci ilin 5-6 sentyabrında və 12-də Bakı Müsəlman İctimai Təşkilatları Komitəsinin növbəti iclası keçirilmiş, Əlimərdan bəy Komitənin sədri seçilmiş, oktyabr-noyabr aylarında isə o, ümumi seçki-hüquqi əsasında Bakı Şəhər Dumasına keçirilmiş seçkilərdə iştirak edərək Dumaya üzv seçilmişdi (Allahverdiyev, 2018, s. 153–154).

1917-ci ilin aprel ayında Bakıda və may ayında Moskvada keçirilən Qafqaz və Ümumrusiya Müsəlman Qurultaylarında müsəlmanların "Rusiyanın milli-ərazi federativ əsaslarla Demokratik Respublika şəklində yenidən qurulması" haqda birgə tezisləri yekun sənədlərdə öz əksini tapmışdı. Hər iki Qurultaya sədrlik edən Əlimərdan bəy Topçubaşov Bakıdakı "Müsavat" və Gəncədəki "Türk Adəmi-mərkəziyyət" partiyalarının liderləri – Məmməd Əmin Rəsulzadə və Nəsib bəy Yusifbəyliyə milli maraqlar naminə öz səylərini birləşdirməyi təklif etmiş, bu təklif qəbul edilərək tezliklə birləşmiş "Türk Adəmi-mərkəziyyət firqəsi – Müsavat" Azərbaycan ideyasını gerçəkləşdirən aparıcı qüvvəyə çevrilmişdi. (Muradov, 2018).

1918-ci ilin may ayının 28-də Azərbaycanın müstəqilliyi elan edildikdən sonra avqustun 20-də Azərbaycan Cümhuriyyətinin hökumət üzvü olan Əlimərdan bəy Topçubaşov Cümhuriyyətin Səlahiyyətli naziri və Fövqəladə nümayəndəsi təyin olunaraq Cümhuriyyətin maraqlarına aid olan, bütün məsələlər üzrə Osmanlı Dövlətinə göndərilir. Əlimərdan bəy həmçinin oktyabrın 6-da Azərbaycan Cümhuriyyətinin Xarici İşlər naziri vəzifəsinə təyin edilir. Topçubaşovu həm də 7 dekabr 1918-ci ildə Bakıda toplanan ilk iclasında Azərbaycan Parlamenti özünün sədri seçir. İstanbulda olmasına baxmayaraq, Parlamentin və dövlətin başçısı vəzifəsinin məhz Əlimərdan bəy Topçubaşova tapşırılması onun Azərbaycanda hamının qəbul etdiyi bir siyasi xadim olmasının məntiqi nəticəsi idi. Ona həmçinin dekabrın 28-də "Paris sülh Konfransı"nda iştirak edəcək Azərbaycan nümayəndə heyətinə başçılıq etmək də həvalə olunmuşdu.

İstanbulda olarkən buradakı bütün xarici nümayəndələrlə görüşən Topçubaşovun bu görüşlərdə gedən söhbətlər zamanı edilmiş qeydlərindən görünür ki, o, Azərbaycan dövlətçiliyinin dünya miqyasında tanınması üçün nə qədər gərgin və yorulmaz fəaliyyət göstərmişdir. Bütün qarşıdurmaları dəf edərək 1919-cu ilin may ayında Parisə gəlib çıxan Azərbaycan nümayəndə heyətinin başda Əlimərdan bəy Topçubaşov olmaqla buradakı səkkiz aylıq fədakar fəaliyyəti sonda öz bəhrəsini vermiş, 1920-ci ilin 11 yanvarında dünyanın aparıcı dövlətləri tərəfindən Azərbaycan Respublikasının müstəqilliyi hüquqi cəhətdən (de-jure) tanınmış, bununla da Azərbaycan dövləti beynəlxalq aləmin subyekti kimi öz təsdiqini tapmışdı.

Azərbaycan Cümhuriyyətinin bolşeviklər tərəfindən süquta uğradıldıqdan sonra da dövlətin başçısı kimi mühacirətdə öz mübarizəsini davam etdirən Əlimərdan bəy Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal edildiyini bəyan etmiş və göstərmişdi ki, "Bolşeviklərin Azərbaycanın adından danışmağa haqqı yoxdur!".

Azərbaycan Milli Hərəkatının və dövlətçiliyinin memarlarından biri olan Əlimərdan bəy Topçubaşov 5 noyabr 1934-cü ildə Parisdə vəfat etmiş və Paris yaxınlığındakı "Saint-Cloud" (San-Klu) şəhərinin qəbiristanlığında dəfn edilmişdir.

"Xalq haqqında", "Vətən haqqında" deyil, "Xalq üçün", "Vətən üçün" çalışan, Azərbaycan siyasi elitasının "patriarxı" sayılan Əlimərdan bəy Topçubaşovun nəzəri-ideoloji və təcrübi fəaliyyətini dəyərləndirən onun silahdaşı, ümummilli lider Məmməd Əmin Rəsulzadə yazır: "Əlimərdan bəy heç şübhəsiz Mirzə Fətəli, Həsən bəy (Zərdabi) və İsmayıl Mirzə (Qasprali) kimi şəxslərin canlandırdıqları Milli kültür hərəkatını qurtuluş yoluna çəkən böyük mücahidlərdəndir. Fəqət, Əlimərdan bəyi bu üç ustaddan, eləcə də müasiri olan bəzi ideya adamlarından fərqləndirən bir

xüsusiyyət var idi. Əlimərdan bəy yürütdüyü siyasətin fikirçisi olmaqdan çox, işçisi idi. Onun bütün həyatı milli davanın vəkilliyi kimi məsuliyyətli işlərdə keçmişdi. Hətta mətbuatda çalışması da bir ideya, bir ideoloji propaqanda yapmaqdan ziyadə, müəyyən praktik məsələlərin gerçəkləşdirilməsindən ibarət olmuşdur" - Vəliyeva.

**Nəticə**

Nəticə olaraq deyə bilərik ki, millətimizin böyük mütəfəkkirlərindən olan Əlimərdan bəy Topçubaşov demokratik dövlətçiliyimizin nəzəri əsaslarının hazırlayanlardan, yaradanlardan biri və həmin dövlətin qanunverici orqanına başçılıq etmiş böyük siyasi xadimdir. O, milli şüurumuzun inkişafı və formalaşmasında öz əqidədaşları içərisində ən böyük nüfuza malik olan, önəmli ziyalılarımızdan biri olmaqla dövlətçilik tariximizdə böyük yeri və rolu olmuşdur.

**Ədəbiyyat**

1. Allahverdiyev, Q., & Behbudov, Q. (2018). Əlimərdan bəy Topçubaşovun ictimai, siyasi və hüquqi baxışları. *Azərbaycan Xalq Cümhuriyyəti: Tarixi və sosial-fəlsəfi təhlil* (Məqalələr toplusu).
2. *Azərbaycan tarixi.* (2001). 7 clddə (V cild). Elm.
3. Behbudov, Q. (2018). *Azərbaycan Xalq Cümhuriyyətində hüquqi dövlət quruculuğu məsələləri və siyasi-hüquqi fikrin inkişafı*. Qeyrət Nəşriyyatı.
4. Əhmədli, R. A. (2008). *Azərbaycan dövlətçilik fəlsəfəsi*. Nurlan.
5. Əhmədli, R. A. (2007). *Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: Türkçülük, müasirlik, islamçılıq*. Elm.
6. Ələkbərli, F. Q. (2023). *Azərbaycan türk fəlsəfi və ictimai fikir tarixi (XIX–XX əsrlər)* (3 cilddə, II cild, I kitab). Elm və Təhsil.
7. Hüseyn, B. (1992). *Azərbaycan istiqlal mübarizəsi tarixi*. Azərbaycan Dövlət Nəşriyyatı.
8. *Kaspi* qəzeti. (1906, 23 dekabr).
9. Məmmədov, İ. M. (2005). *Azərbaycan tarixi*. Adiloğlu.
10. Məmmədzadə, M. B. (1992). *Milli Azərbaycan hərəkatı*. Nicat.
11. Muradov, Z. (2018, 28 aprel). Birinci Respublikanın rəsmi siması — Əlimərdan bəy Topçubaşov. *525-ci qəzet*.
12. Vəliyeva, S. M. (2022, 18 may). Əlimərdan bəy Topçubaşov və Azərbaycan məfkurəsi. *Azadinform*. http://azadinform.az/az/baxis-bucagi/155090/elimerdan-bey-topcubasov-ve-azerbaycanciliq-mefkuresi/
13. Rəsulzadə, M. Ə. (1952, 1 noyabr). Alimerdan bey Topçubaşov. *Azərbaycan* dərgisi.